# Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2022-ci il üzrə illik hesabatı

*9 fevral 2023-cü il*

Dövlət Komitəsi ölkədə ailə, qadın, uşaq siyasətinin inkişafını təmin etmək üçün daim çalışır, qanunvericiliklə müəyyən edilmiş istiqamətlər üzrə müvafiq sahələrdə vahid dövlət siyasətinin formalaşdırılmasında yaxından iştirak edir. Ölkəmizdə həyata keçirilən dinamik inkişaf siyasəti bütün sahələrdə olduğu kimi, ailə, qadın və uşaq siyasətinin həyata keçirilməsi istiqamətində də nailiyyətlərin əldə edilməsinə səbəb olmuşdur.

Dövlət Komitəsi fəaliyyət istiqamətləri üzrə 2022-ci il üçün təsdiq edilmiş İş Planında nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsi istiqamətində öz işini qurmuşdur.

Cari il ərzində Komitə **16 Dövlət Proqramı** üzrə öhdəlikləri, eyni zamanda **5 Milli Fəaliyyət Planının icrası** istiqamətində tədbirlər həyata keçirmişdir.

- **Dövlət Komitəsi tərəfindən normativ hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində 11 sənəd layihəsi hazırlanmışdır:**

- “Azərbaycan Respublikasında Qadın məşğulluğunun təminatı ilə bağlı 2023-2025-ci illər üçün Milli Fəaliyyət Planı”
- BMT Təhlükəsizlik Şurasının “Qadınlar, Sülh və Təhlükəsizlik üzrə 1325 saylı Qətnaməsinin Azərbaycan Respublikasında Tətbiqinə dair Milli Fəaliyyət Planı”
- “Gender Bərabərliyi üzrə 2023-2025-ci illər üçün Milli Fəaliyyət Planı”
- Məişət zorakılığı ilə mübarizə sahəsində qanunvericiliyin təkmilləşdirilməsinə dair hazırlanan sənəd layihələri;
- Uşaq hüquqlarının həyata keçirilməsinin bütün sahələrdə təmin edilməsi vəziyyətinin monitorinqi üzrə meyarların, habelə dövlət və qeyri-dövlət uşaq müəssisələrində xidmətin keyfiyyətinə dair tələblər;

- Hakimlər, habelə prokurorluq, polis və digər hüquq mühafizə orqanlarının əməkdaşları üçün yetkinlik yaşına çatmayanlarla davranış qaydalarının hazırlanması və təlim proqramlarının həyata keçirilməsi barədə təkliflər;
- "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında" yeni Əsasnamə;
- Uşaq hüquqlarının təminatları haqqında Qanun;
- Fövqəladə hallarda, pandemiya və bu kimi xüsusi vəziyyətlərdə uşaqların təhsilə, sosial və digər xidmətlərə təhlükəsiz çıxışında bərabərliyin təmin edilməsi istiqamətində mexanizmlərin müəyyən olunması barədə təkliflər;
- Çətin həyat şəraitində olan uşaqların aşkarlanması və onlara münasibətdə sosial müdafiə tədbirlərinin həyata keçirilməsi üzrə işlək mexanizmin yaradılması istiqamətində normativ hüquqi aktların təkmilləşdirilməsi barədə təkliflər;
- Yetkinlik yaşına çatmayanların işləri və hüquqların müdafiəsi üzrə komissiyanın və yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər.

➢ **Bununla yanaşı, Komitə tərəfindən <u>10 qanunvericilik layihəsinə</u> rəy və təklif verilmiş, həmçinin <u>20 təklif və tövsiyə sənədi</u> hazırlanmışdır**

**Bunlardan bir neçəsini diqqətinizə təqdim etmək istərdim:**

- "2022-2026-cı illər üçün İİV/QİCS-lə mübarizə üzrə Dövlət Proqramı";
- "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Qanunu;
- Cari ildə Ciddə şəhərində Hökumətlərarası Ekspertlər Qrupu tərəfindən müzakirəsi nəzərdə tutulmuş İƏT Uşaq Hüquqları Konvensiyası;
- Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"nın 4.1.9-cu yarımbəndinin icrası məqsədi ilə Daxili İşlər Nazirliyi tərəfindən hazırlanmış normativ hüquqi akt;

- Baş Prokurorluqdan Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına daxil olmuş bəzi qanunvericilik aktlarının (Cinayət Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi, Cinayət Prosessual Məcəlləsi və s.) təkmilləşdirilməsi ilə bağlı hazırlanmış qanun layihələri;
- Əhalinin sosial xidmətlərlə daha çevik formada əlaqələndirilməsi məqsədilə sosial xidmət müəssisələrini əks etdirən ölkə üzrə vahid interaktiv xəritənin yaradılması barədə tövsiyə sənədi.

➢ **Ötən il ərzində Komitə tərəfindən 30-dan çox regionu və ümumilikdə 4 mövzunu əhatə edən 7 araşdırma və təhlil aparılmışdır**

- Ölkədə qohum evlilikləri üzrə vəziyyətin öyrənilməsi;
- Azərbaycanda erkən uşaqlıq dövründə xidmətlərin əlçatanlığı və təminatı;
- "Uşaqlara qarşı zorakılıq hallarının səbəbləri, miqyası, nəticələri və qarşısının alınması:Qanunvericilik və onun tətbiqi praktikası";
- Azərbaycanda seksual qısnama: qanunvericilik və onun tətbiqi praktikası;
- Təhsil müəssisələrində rəhbər vəzifələrdə gender bərabərsizliyi;
- Medianın intiharlara təsiri;
- Erkən nikah halları.

*Dövlət Komitəsinin və Azərbaycan Milli Elmlər Akademiyasının birgə təşkilatçılığı ilə "Azərbaycanda seksual qısnama: qanunvericilik və onun tətbiqi praktikası" adlı analitik hesabatın təqdimatı keçirilmişdir.*

➢ **Həmçinin ötən il ərzində bir sıra mövzulara dair hesabatlar hazırlanaraq AR Prezidenti Administrasiyasına və AR Nazirlər Kabinetinə və Milli Məclisə təqdim edilmişdir:**

- Gender bərabərliyinin təmin edilməsi ilə bağlı 2021-ci il üzrə məlumat; (MM)
- "Kommunikasiya Strategiyası"; (PA)
- "Sosial Media Siyasəti". (PA)
- "Uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair illik hesabat"; (NK)

- “İdeologiyanın əsasları adlı sənədin icrası ilə bağlı 2022-ci il üzrə ailə institutunun inkişafı, qadın və uşaq hüquqlarının həyata keçirilməsi istiqamətində və qarşıya qoyulan hədəflər çərçivəsində görülən işlər”; (PA)
- “Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası" nın icrası ilə bağlı dövlət qurumları tərəfindən 2022-ci il ərzində görülmüş işlər”. (NK)

➢ **Beynəlxalq və milli səviyyədə qeyd edilən günlərlə bağlı:**

**Bakı şəhəri və 11 regionda** (Ağdam, Şüvəlan, Saatlı, Sabirabad, Hacıqabul, Qəbələ, İsmayıllı, Goranboy, Göygöl, Zaqatala, Zərdab rayonlarında) **2495 nəfərin iştirakı ilə 156 tədbir** keçirilmişdir.

➢ **Ailə məsələləri sahəsində**

Ötən il ərzində **6553 nəfərin iştirakı ilə 8 layihə** (“Həyatının memarı-Sən özünsən”, “Birlikdə faydalanaq”, “Oxuyaq və paylaşaq”, “İnsan alveri və məcburi əməyə YOX deyək!”, “Ailələrimizi tanıyaq”, “Məişət zorakılığına yox deyək!”, “Məktəblinin dostu”, “Şəxsi inkişaf və kariyera planlaşdırılması”) **çərçivəsində 53 təlim, seminar, konfrans və icma görüşü** keçirilmişdir.

- Beynəlxalq Ailə Günü münasibəti ilə Bakı şəhərinin 12 rayonu və digər regionlardan olan **110 ailənin iştirakı ilə “Ailə festivalı”,**
- Dövlət Komitəsinin təçkilatçılığı ilə **“Azərbaycan ailə modelinin inkişaf strategiyası” adlı konfrans**;
- **“Ailə, ailə dəyərləri və ənənələr. Ailə dəyərlərinin uşaqlara aşılanmasında valideyn və müəllimlərin rolu”** mövzusunda təlimlər;
- Dövlət Komitəsi və Biləsuvar rayon İcra Hakimiyyəti ilə birgə **“Erkən nikahın fəsadları-natamam gələcək”** adlı konfrans keçirilmişdir.

- **Qadın və gender məsələləri sahəsində**

2022-ci il ərzində **3 layihə çərçivəsində 4827 nəfərin iştirakı ilə 30 təlim, seminar, konfrans və 1 qaçış marafonu keçirilmişdir.**

**"Narkomaniyaya Yox Deyək" adlı konfrans, "Qadın hüquqları yeni ictimai-siyasi reallıqlar kontekstində"; "8 mart-Beynəlxalq Qadınlar Günü" akademik Zərifə xanım Əliyevanın anadan olmasının 99-cu ildönümünə** həsr edilmiş **"Nurlu ömrün işığı",** Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş **"Şuşa bizim milli rəmzimizdir"** mövzusunda gənc yazarlar və jurnalistlər arasında **"Ən yaxşı yazı" müsabiqəsi keçirilmişdir.** (2022-ci ilin birinci yarımilində keçirilmiş tədbirlər)

Komitə və Təhsilin İnkişafı Fondunun birgə əməkdaşlığı ilə **11 oktyabr - Beynəlxalq Qızlar Gününə həsr edilmiş "Gənc Qızların Təhsilinə Dəstək-2022" layihəsinə start verilmişdir**. Layihə çərçivəsində Elm və Təhsil Nazirliyi və Komitə arasında **niyyət protokolu** imzalanmışdır. Eyni zamanda "Gənc Qızların Təhsilinə Dəstək-2022" Kampaniyası çərçivəsində regionlardan olan, ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayan, aztəminatlı və həssas qrupdan **olan 25 tələbəyə təqaüdün verilməsi təmin olunmuşdur.**

**"Azərbaycan bələdiyyələrində gender bərabərliyi komissiyaları üçün gender bərabərliyi və yerli idarəetmə" mövzusunda təlimlər keçirilib.**

Dövlət Komitəsinin və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin birgə təşkilatçılığı ilə 30 noyabr 2022-ci il tarixində **"Gender Azərbaycan" portalının təqdimat mərasimi** baş tutub.

**"Gender bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının 10 dekabr 2006-cı il tarixli Qanununun 20-ci maddəsinə** əsasən Komitə tərəfindən 2021-ci il üzrə üç əsas istiqamət üzrə Məlumat hazırlanaraq, **Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilmişdir.**

### ➢ Qadın Resurs Mərkəzləri

Ötən il Komitənin BMT-nin İnkişaf Proqramı və ABŞ Beynəlxalq İnkişaf Agentliyinin əməkdaşlığı ilə birgə **“Sahibkarlığa və Məşğulluğa İqtisadi Dəstək” layihəsi çərçivəsində <u>Sumqayıt, Xaçmaz və Bərdə</u> <u>Qadın Resurs Mərkəzləri</u> açılmışdır.**

Qadın Resurs Mərkəzləri tərəfindən keçirilən **190** təlim və seminarlarda **2491 nəfər** iştirak etmişdir.

### ➢ Uşaq hüquqlarının müdafiəsi sahəsində

Ötən il ərzində **<u>4 layihə</u> çərçivəsində <u>2213 nəfərin</u> iştirakı ilə <u>31 təlim, seminar və icma görüşü</u> keçirilmişdir.**

**“Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”**na əsasən uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair 2021-ci il üzrə ölkə hesabatı hazırlanaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir. **5 dövri və 1 növbədənkənar monitorinq** təşkil olunmuşdur. Monitorinqlərin nəticəsinə uyğun olaraq 1 müəssisənin (Sevgi Uşaq Evi) fəaliyyəti ilə bağlı rayon prokurorluğu tərəfindən cinayət işi açılmışdır. 1 müəssisə isə Elm və Təhsil Nazirliyinin əsaslı təmirə ehtiyacı olan müəssisələrin siyahısına daxil edilmişdir. Digər müəssisələrin fəaliyyətində aşkar olunan nöqsanlarla bağlı tövsiyələr verilmiş və ümumi vəziyyət qənaətbəxş hesab edilmişdir.

- Komitə tərəfindən **320** nəfərin iştirakı ilə müxtəlif regionlardan olan (Oğuz, Şəki, Qax, Zaqatala, Balakən, Qobustan, Şamaxı, Ağsu, İsmayıllı və Qəbələ) **qızlar arasında şahmat üzrə turnir təşkil edilmiş və onlara ustad dərsləri** keçilmişdir.

- Regionlarda monitorinq qruplarının fəaliyyətinin gücləndirilməsi. Həmçinin CRC hesabatı öncəsi regional müzakirələrin keçirilməsi məqsədilə Gəncə şəhərində **“Çətin həyat şəraitində olan uşaqların müdafiəsi və yerli mexanizmlərin təkmilləşdirilməsi” mövzusunda regional konfrans** baş tutdu

- Dövlət Komitəsinin sifarişi əsasında Sosial Tədqiqatlar Mərkəzi tərəfindən hazırlanmış **“Azərbaycanda uşaqların ailə-cəmiyyət münasibətlərində yeri və rolu” analitik hesabatında** tətbiq olunmuş ictimai rəy sorğusuna həsr edilən konfrans keçirilmişdir.

- **“8 Noyabr-Zəfər Günü” münasibətilə ilə “Zəfərə Aparan İdeya”** adlı **2** startap layihə müsabiqəsi keçirilmişdir. 2 Müsabiqə boyunca uşaq hüquqlarının müdafiəsi ilə bağlı müxtəlif mövzularda Bakı şəhəri və cənub bölgəsi üzrə (Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlı, Lənkəran) **180 uşaq iştirak etmiş və 10 qalib layihə olmuşdur.**

- Komitənin və Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə keçirilən **“İTi zəka” hakatonuna 230 uşaq qeydiyyatdan keçmiş, onlardan 34 nəfəri müsabiqədə iştirak hüququ qazanmışdır.** Ümumilikdə hakatonda iştirak edən **12 komanda içərisindən 3 qalib komanda** müəyyən edilmişdir.

- Komitənin təşkilatçılığı ilə **“Qalib Ölkənin Qalibləri-2022” adlı istedadlı uşaqların mükafatlandırma mərasimi** baş tutmuşdur. Tədbirdə elm, təhsil, mədəniyyət və idman sahəsində il ərzində Azərbaycanı beynəlxalq olimpiada və yarışlarda təmsil edərək qalib olmuş, eləcə də uşaq iştirakçılığı sahəsində fəallığı ilə seçilən **70 uşaq** təltif edilmişdir.

-

- “**Uşaq Səfirlər Məclisi**” nin təşəbbüsü ilə “Uşaqdan uşağa” layihəsi çərçivəsində **"Xəyalların Sərhədi Yoxdur" adlı interaktiv konfrans** və **“Liderlik və təşkilatçılıq bacarıqlarını inkişaf etdirək”** adlı maarifləndirici tədbir, **“Qızlar müzakirəyə qoşulur”** layihəsi çərçivəsində 3 görüş, **“Şuşa-mədəni irsimiz” adlı intellektual yarış**, Quba rayonunda uşaq hüquqları haqqında təlim və Uşaq Səfirlər Məclisinin saytının təqdimatı keçirilmişdir.

- **Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin fəaliyyətindən ümumilikdə <u>29193</u>** nəfər bəhrələnmişdir.

- 11 Mərkəzə müxtəlif mövzulara dair **3361 müraciət** edilmiş, müraciətlərdən **1901-i təmin** olunmuşdur.

`

- UADM-lərə daxil olan vətəndaş müraciətlərində mərkəz xidmətlərindən istifadə (1063), maddi yardım (664), işlə təmin olunma(302), müayinə və müalicə (195), müxtəlif yönümlü sosial müavinətlərin verilməsi (177) üstünlük təşkil etmişdir.
  **Bununla yanaşı, 11 erkən nikahın qarşısı alınmış, təhsildən yayınma ilə bağlı daxil olan 22 müraciətdən 8-i müsbət həll edilmişdir.**

- **«Açıq qapı» günləri**

**Davamlı olaraq Komitənin 11 Uşaq və Ailələrə Dəstək Mərkəzi və 17 İcma Resurs Mərkəzlərində keçirilir.**

2022-ci il ərzində keçirilən "açıq qapı" günlərində müxtəlif mövzularla bağlı müraciət edən **<u>1685</u> <u>vətəndaş</u>a (<u>1301 qadın</u>-77,2%, <u>384 kişi</u>-22,8%) psixoloji, hüquqi və sosial problemlərin** həlli üzrə dəstək göstərilmişdir.

-

- **"Postmüharibə dövründə uşaqlar və şəhid ailələrinə psixososial dəstək"layihəsi**

Çərçivəsində **272 şəhid və qazi ailəsinə səfər edilmiş** və həmin ailələrdən olan uşaqlar yerli Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin xidmətlərinə cəlb edilmişdir.

Əlavə olaraq "Postmüharibə dövründə uşaqlar və şəhid ailələrinə psixososial dəstək" layihəsi çərçivəsində **Ağdam və Goranboy rayonunun 2 kəndində 6-16 yaşlı 100 uşağa və onların ailəsinə psixososial dəstək göstərilmişdir.**

Ötən ilin oktyabr-dekabr aylarında Zəngilan rayonunun xüsusi nümayəndəliyi ilə birgə Ağalı kəndinə köçürülmüş əhali qrupu arasında sorğular keçirilmiş, Ağalı icmasında Ailə klubunun yaradılması ilə bağlı konsepsiya və tədbirlər planı hazırlanmışdır. Həmçinin ötən ilin sonunda Zəngilan rayonuna səfər edilmiş, sakinlərlə görüş keçirilmişdir.

Dövlət Komitəsində ötən il ali məktəbə qəbul olmuş şəhidlərimizin həyat yoldaşları ilə görüş təşkil olunmuşdur.

- **Ötən müddət ərzində Komitə öz fəaliyyətində Qeyri-hökumət təşkilatı ilə sıx əməkdaşlıq etmiş,** Komitənin iştirakı və dəstəyi ilə **23 Qeyri-hökumət təşkilatları tərəfindən 76 tədbir** təşkil edilmişdir.

- Komitə və "Regional İnkişaf" ictimai birliyinin birgə təşkilatçılığı ilə "Uşaq müdafiəsi sahəsində dövlət qurumları və vətəndaş cəmiyyətinin dialoqu" adlı konfrans;
- "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyi və «Azərcell Telekom» MMC "Qadın Qaynar Xətti istifadəyə verilmiş;
- Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi "BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyasının həyata keçirilməsində qeyri-hökumət təşkilatlarının rolu" mövzusunda tədbir;
- Sosial iş İctimai Birliyi ilə birgə "Gender əsaslı zorakılığa məruz qalan şəxslərlə sosial işin təşkili" adlı konfrans təşkil olunmuşdur.

- **Dövlət Komitəsinin İctimai Şura ilə birgə fəaliyyəti**

- **Azərbaycanlıların soyqırımı gününə həsr olunmuş dəyirmi masa təşkil olunmuş,**
- **BMT-nin “Uşaq Hüquqları Konvensiyası” ilə bağlı 5-ci və 6-cı dövri hesabata hazırlıq məqsədilə görüş baş tutmuşdur.**
- İctimai Şura ilə birgə sosial şəbəkə blogerləri arasında **“Ailə dəyərləri, qadın və uşaq hüquqlarının təbliği üzrə ən fəal bloger” müsabiqəsi** elan edilmişdir. 5 meyar üzrə qiymətləndirilən 3 qalib bloger müəyyən edilmiş, 4 nəfər isə həvəsləndirici diplomlarla mükafatlandırılmışdır.

## ➢ Könüllülük və Tələbə təcrübə proqramı

- 1 aprel 2022-ci il tarixindən Komitədə növbəti könüllülük proqramı həyata keçirilmişdir. Proqram çərçivəsində könüllülər Komitənin, UADM-lər və aidiyyəti üzrə sığınacaqların fəaliyyəti ilə tanış olumuş, onlara maraqlı təlimlər keçirilmişdir. **(58 könüllünün iştirakı ilə 21 təlim)**

- Ötən ilin fevral ayından başlayaraq (14 həftə müddətində) Komitədə **7 Universitetdən 51 tələbə** təcrübə keçmişdir. Təcrübəçi tələbələr üçün Komitənin fəaliyyət istiqamətləri üzrə sahəvi görüşlər və təlimlər təşkil olunmuşdur. (**51 tələbənin iştirakı ilə 9 təlim)**

## ➢ Dövlət Komitəsinə daxil olan vətəndaş müraciətləri və regional qəbul

- Dövlət Komitəsinə daxil olan **4111 vətəndaş müraciətinə** baxılmışdır. <u>**165**</u> müraciət müsbət həll edilmişdir. **Ümumi müraciətlərin 2,6 %-ni regional qəbul (108), 8,1 %-ni isə Komitədə keçirilən qəbullar (333) təşkil edir.**

- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən

bölgələrdə vətəndaşların qəbulu cədvəlinə əsasən, **Gəncə şəhərində və Zərdab, Saatlı, Şamaxı, Masallı, İsmayıllı, Abşeron, Ağdaş, Biləsuvar** rayonlarında və Komitədə vətəndaşların qəbulu aparılmışdır.

➢ **Vətəndaş müraciətlərində üstünlük təşkil edən mövzular:**

- Məhkəmə qərarlarının icrası (825), Məişət zorakılığı (468), Müxtəlif yönümlü sosial müavinətlər (264), müalicə və müayinə (237), Mənzil şəraitinin yaxşılaşdırılması (223)
- Məhkəmə qərarlarının icrası ümumi müraciətlərin 20 %-ni təşkil edir. 2021-ci il ilə müqayisədə məhkəmə qərarlarının icrası ilə bağlı müraciətlərin sayı 90 % artmışdır. **2022-ci il ərzində ölkə üzrə 146 mühafizə orderindən 46-sı Komitənin müraciəti əsasında verilmişdir.**

➢ **860 Dəstək Xətti»nə daxil olan müraciətlərin təhlili**

Ümumi müraciətlərin sayı **<u>269</u>** olmuşdur. Müraciətlərin **14,5 %-i (38) kişilər, 85,9 %-i (231) isə qadınlar** tərəfindən daxil olmuşdur.

Zorakılığın növləri üzrə müraciətlərin təhlilinə nəzər yetirsək:

**246 – psixoloji**

**124 – fiziki,**

**44- iqtisadi**

**15 – cinsi zorakılıq** faktı qeydə alınmışdır.

➢ **Sosial şəbəkələr vasitəsilə**

- daxil olan **542 vətəndaş müraciətinə** baxılmışdır. Onlardan **425-i yerində məsləhət və əlaqələndirmə ilə cavablandırılmış, 117-si** isə qeydiyyata alınaraq icra edilmişdir.

- Müraciətlərin **19-u** məişət zorakılığı, **13-ü** zorakılıq, **8-i** erkən nikahla bağlı olmuşdur. Bütün müraciətlərlə bağlı aidiyyəti orqanlarla birgə tədbirlər görülmüşdür.

### ➢ Media ilə əməkdaşlıq

- 22 iyul – Mətbuat Günü ilə əlaqədar olaraq, Dövlət Komitəsi ilə səmərəli əməkdaşlıqda seçilən jurnalistlər mükafatlandırılmışdır.

- **Kütləvi İnformasiya Vasitələrindən** daxil olan **266 sorğu və müraciət** (TV-153, Sayt- 101, radio-12) cavablandırılmışdır. KİV-dən daxil olan müraciətlərin mövzular üzrə təhlilinə nəzər yetirsək: 60-ı uşaq hüquqları və iştirakçılığı, 50-si məişət zorakılığı, 49-u erkən nikah, təhsildən yayınma, təhsil problemləri, 25-i valideyn məsuliyyəti, valideyn-övlad münasibətləri, 17-si uşaqlara qarşı zorakılıqla bağlı olmuşdur.

### ➢ Beynəlxalq əməkdaşlıq istiqamətində fəaliyyət

Ötən il ərzində ikitərəfli münasibətlərin və çoxtərəfli əməkdaşlığın gücləndirilməsi məqsədi ilə ölkəmizdə fəaliyyət göstərən **1 nazir, 5 fövqəladə və səlahiyyətli səfir, 5 beynəlxalq təşkilat** və ölkələrin nümayəndələri ilə görüşlər keçirilmişdir

- Ötən il ərzində Belçika və İsveç Krallıqlarının, Latviyanın, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirləri;
- BMT-nin Əhali Fondunun Türkiyədəki Nümayəndəsi, Azərbaycan və Gürcüstan üzrə ölkə direktoru Hassan Mohtaşami ;
- Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan nümayəndəliyinin rəhbəri vəzifəsində fəaliyyətini başa çatdıran xanım Ariane Bauer və nümayəndəliyin yeni rəhbəri Dragana Kojiç;
- Moldovanın əmək və sosial müdafiə naziri Marçel Spatar;
- BMT-nin Uşaq Fondunun (UNİCEF) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Aleks Haykens ilə görüşlər keçirilmişdir.

## ➢ Beynəlxalq səfərlər və beynəlxalq səviyyəli tədbirlərdə iştirak

- Qarşılıqlı təcrübə və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi məqsədilə Dövlət Komitəsinin nümayəndə heyəti Türkiyə Respublikasının Ailə və Sosial Xidmətlər nazirinin dəvəti ilə Türkiyə Respublikasında səfərdə olmuşdur.

- 14-17 iyun 2022-ci il tarixlərində BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması üzrə Komitəsinin Cenevrə şəhərində keçirilən 82-ci sessiyasında Azərbaycan Hökumətinin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üzrə Konvensiyası"nın icrasına dair altıncı dövri hesabatı təqdim edilmişdir.

- Həmçinin Komitə sədrinin dəvəti ilə Türkiyə Respublikasının Ailə və Sosial Xidmətlər naziri **Derya Yanıkın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda rəsmi səfərdə olmuşdur.** Səfər çərçivəsində keçirilmiş görüşlərdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında səmərəli fikir mübadiləsi aparılmışdır.

- Bundan başqa, Türkiyə Respublikasının Ailə və Sosial Xidmətlər Nazirliyinin koordinasiyasında **İstanbulda "Mədəni kodlar və Qadın"** mövzusunda keçirilən V Beynəlxalq Qadın və Ədalət Zirvəsində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanın rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir. Sözügedən səfər çərçivəsində İstanbul şəhərində **"Azərbaycan və Türkiyə Hökumətləri arasında ailə, qadın və uşaq məsələləri üzrə siyasət sahəsində Əməkdaşlıq Protokolu ilə bağlı Fəaliyyət Planı" imzalanıb.**

- Səfər çərçivəsində Əlcəzair Xalq Demokratik Respublikasının Milli Həmrəylik, Ailə və Qadının Statusu naziri Kaouter Krikou ilə görüş keçirilmişdir.